# IV əlvida, V görüşərik

## Söhbət Bakı Beynəlxalq Teatr Konfransından gedir



■ Nigar Pirimova
*teatrşünas*

Artıq dördüncü dəfədir ki, Bakı Beynəlxalq Teatr Konfransı keçirilir. Hər iki ildən bir baş tutan bu beynəlxalq tədbir bu il 7-8 noyabr tarixlərində Dövlət Musiqili Teatrda keçirildi və 40-yaxın ölkədən gəlmiş nümayəndələrin çıxışları ilə yadda qaldı.

Konfrans-"Multikulturalizm və teatr" mövzusuna həsr olunmuşdu. Konfranda "Multikultural dəyərlər sistemində Azərbaycan teatrı", "Rusiya teatrında və dramaturgiyasında qaçqın mövzusu", "Müasir tamaşaların tərcüməsi ilə bağlı problemlər", "Rəqəmsal teatr", "Teatrın demokratikliyi (Multikulturalizm və mədəni özünəməxsusluq haqqında)", "Tərcümə pyesləri Azərbaycan səhnəsində", "Milli teatrlar çoxmədəniyyətli regionda", "Multikulturalizm və müasir Maralthi teatrı", "Müasir teatrda aktyorun obrazı", "Uşaq və gənclər teatrlarının əhəmiyyəti", "Musiqili teatrda kiçik səhnə zərurəti və onun imkanları", "Kantora qayıdış. İtaliya təcrübəsi", "Tbilisidə Azərbaycan Teatrı - keçmişi, bu günü, gələcəyi və inkişaf perspektivləri", "Müasir Azərbaycan teatrının sosiologiyası multikultural dəyərlər aynasında", "Görmə və eşitmə imkanları məhdud olan insanlar üçün teatrın yaranma yolları", "Yuğ" Teatrı. Şərqdə Qərb paradoksu", "Multikulturalizm və üçüncü məkanla yaxınlaşmaq: reallıq yoxsa sadəcə növbəti ticari utopiya" və s. bu kimi bir-birindən fərqli mövzularda çıxışlar dinlənildi. Əslində bu dəfə konfransdan danışarkən niyyətim orda olanları olduğu kimi çatdırmaq deyil. Bu yazıda konfransda toxunulan mövzulara, teatr mütəxəssislərinin nədən danışdıqlarına və ən əsası, bunun bizim teatra nə kimi töhfələr verməsinə, hansısa yeni nəticələrin əldə olunması kimi məsələlərə qısa da olsa münasibət bildirmək istərdim. Ancaq bütün bunlardan danışmazdan öncə azacıq da olsa konfransın açılışı günündən yazmağı özümə borc bilirəm.





Hər dəfəki sadə açılışdan fərqli olaraq bu dəfə konfrans çox maraqlı və qeyri-adi bədii hissə ilə həm bizləri, həm də qonaqları heyran etdi. Müxtəlif teatr kollektivlərinin ifasında qısa tamaşalar, rəqslər, baletlər, musiqi nömrələri incə bir şəkildə biri digərini əvəzlədi. Özündə xalqımızın tarixi keçmişini əks etdirən Qobustan qaya təsvirlərindən tutmuş, yeddi gözələ, Leyli-Məcnuna qədər, səhnədə canlandıran ifaçıların ardınca bədii hissə sonda rəqs ansamblının möhtəşəm rəqsi ilə tamamlandı. Və konfrans Mədəniyyət və Turizm Naziri Əbülfəz Qarayevin çıxışı ilə açıq elan olundu. İki gün davam edən konfransda 40-a yaxın ölkədən 150 nümayəndə, eləcə də yerli mütəxəssislər iştirak edirdi.

Konfransda bir sıra maraqlı fikirlər səsləndi, slaydlarla hətta günü bu günümüzdə xaricdəki teatrlarda iş prosesi, tamaşaların ərsəyə gəlməsi, yeni texnologiyaların inkişafı ilə hazırlanan tamaşaların seyrçilərdə yaratdığı maraqlı anlar, gənclərin hansı tamaşalara daha çox maraqla gəldiyi, nələri maraqla qarşıladıqları barədə söhbətlər, teatr tamaşalarındakı dekorlar, hətta eşitmə və görmə imkanlarından məhdud seyrçilər üçün tamaşaların necə qavranılmasından danışıldı. Bununla yanaşı, bizim milli teatrımızdan da söhbət açıldı. Mövzulara uyğun olaraq zamanla Azərbaycan səhnəsində tamaşaya qoyulmuş tərcümə əsərlərinin quruluşu, o dövrlə bu dövr arasında hansı çətinliklər, hansı problemlərin yaşandığı, eyni zamanda qaçqın teatrlarımız və müasir dövrdə yeniləşən teatrlardan, tamaşalardan, yeni repertuardan, teatr tariximizdən bəhs edən məlumatlar gələn qonaqlar üçün də maraqlı idi.

Artıq dördüncü dəfədir ki, bu konfransda dinləyici qismində məruzələrə qulaq asırdım. Və təəssüflə qeyd edim ki, bəzi məruzələrdə yeni fikirlərə rast gəlmək çətin idi. Məruzəçi öz ölkəsindəki teatr prosesindən müəyyən nüansları diqqətə çatdırırdı. Hətta bəzən məni bir sual düşündürürdü-bu teatrlar öz keçmişlərindən, bu günki problemlərdən danışırlar, lakin məhz teatr və multikulturalizm çərçivəsindən hər dəfə uzaqlaşırlar. Mövzuların bir çoxlarının adlarında multikulturalizm sözü işlənsə də, mətni mətləbdən demək olar ki, uzaq idi.

Bu gün onlarla gənc jurnalist, teatrşünas, aktyor, rejissor yetişir, ancaq gəlin baxaq həmin iki gündə konfransda nə qədər gənc vardı? Özüm dəfələrlə şahid oldum, az olduqları qədər gələnlər də maraqsız məqamlarda ya zalı tərk edirdilər, ya da dinləmirdilər. Bu artıq IV Bakı Beynəlxalq Teatr Konfransıdı və 4-cü dəfədir ki, bu halın şahidi oluram. Amma bizim yerli teatrşünaslarımız qısa məruzələrində zalda maraq yarada bildilər. Dediklərimdə nələrisə tənqid etmək məqsədim yoxdur, sadəcə bəzi fikirlərimi bölüşmək istəyirəm, çünki hər dəfə belə konfranslara daha çox öyrənmək istəyi ilə qatılıram.

Və V Bakı Beynəlxalq Teatr Konfransında yenidən görüşmək ümidi ilə sizdən ayrılıram...

www.KASPI.AZ 17 noyabr 2016